

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 82 (23.969)

6 may 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şərur rayonunda Günəş Elektrik Stansiyası istifadəyə verilib

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə hər iki rəhbərliyi dövründə həyata keçirdiyi tədbirlər Azərbaycanın kompleks inkişafına xidmət edir. Hazırda muxtar respublikada iqtisadiyyatın bütün sahələrində qazanılan nailiyyətlər, xüsusilə enerji təhlükəsizliyinin təmin olunması ulu öndərin uzaqgörən siyasətinin bəhrələridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk”.***



Mayın 5-də – ulu öndərin anadan olmasının 99 illiyi ərəfəsində Şərur rayonunun Zeyvə kəndində yeni Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev məlumat vermişdir ki, muxtar respublikada ümumi qoyuluş gücü 240,5 meqavat olan 11 elektrik stansiyası vardır ki, onlardan ümumi qoyuluş gücü 103,5 meqavat olan 9-u bərpa olunan enerji mənbələri hesabına fəaliyyət göstərir. Şərur rayonunun Zeyvə kəndində Günəş Elektrik Stansiyasının tikintisi üçün 35 hektar əkinəyararsız torpaq sahəsi ayrılmışdır. Ayrılan 15 hektar ərazinin 7,9 hektarı ilk tikilən 5 meqavatlıq, 4,25 hektarı isə yeni tikilən 3 meqavat gücündə Günəş Elektrik Stansiyası üçün istifadə edilmişdir. Ötən ilin iyun ayında İsveçrənin “Pure Energy Development” SARL şirkəti ilə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti arasında müqavilə imzalanmışdır. Stansiyada tikinti-quraşdırma işləri qısa müddətdə və yüksək keyfiyyətlə aparılmış, hər birinin gücü 330 vatt olan 9108 “PERC” tipli müasir “şüşə-şüşə” formalı günəş panelləri, hər birinin gücü 50 kilovat olan 60 invertor, müasir tip kommutasiya aparatları və digər elektrik avadanlıqları ilə təmin olunmuş 3 ədəd 35/0,4 kilovoltluq 1250 kilovat gücündə transformator yarımstansiyaları quraşdırılmışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Zeyvə Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə təşkilatçılara təşəkkürünü bildirərək demişdir: Muxtar respublikada elektrik enerjisinə olan tələbatın 60 faizə yaxını bərpa olunan enerji ilə təmin edilir. Bu sahədə işlər davam etdirilir. Çünki təbii resurslardan istifadə edərək muxtar respublikanın elektrik enerjisinə olan tələbatını bərpa olunan enerji mənbələri hesabına ödəmək mümkündür. Naxçıvan şəhərində, Kəngərli və Şərur rayonlarında Günəş və su, Culfa rayonunda isə külək elektrik stansiyalarının qurulması nəzərdə tutulmuşdur. Hazırda Ordubad rayonunda iki su elektrik stansiyasının qurulması davam etdirilir və yaxın zamanlarda istifadəyə veriləcəkdir. Culfa rayonunda 1,1 meqavatlıq Külək-Günəş Hibrid Elektrik Stansiyasının açılışı olmuşdur. 10 yeni Külək Elektrik Stansiyasının qurulmasına isə qısa zamanda başlanılacaqdır. Eyni zamanda qarşıdakı illərdə hər birinin gücü 1,5 meqavat olan 5 külək elektrik stansiyasının qurulması da nəzərdə tutulmuşdur. Bu tədbirlərdən sonra muxtar respublikanın enerji tələbatı tamamilə bərpa olunan enerji hesabına ödəniləcəkdir. Həyata keçirilən tədbirlər imkan verəcək ki, muxtar respublikada energetika sistemində yenidənqurma işləri aparılsın, gəlirlər artırılsın, energetiklərin maddi vəziyyəti yaxşılaşdırılsın və muxtar respublikada dayanıqlı enerji sistemi qurulsun.



“İnsanların həyatını ərzaqsız təsəvvür etmək mümkün olmadığı kimi, enerjisiz də təsəvvür etmək mümkün deyil”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, buna görə də elektrik enerjisinə olan tələbatın artdığını nəzərə alaraq yeni elektrik stansiyalarının qurulması işi davamlı həyata keçirilir. Bu stansiyaların qurulmasında müxtəlif şirkətlər iştirak edir. Bunlardan biri də İsveçrənin tanınmış “Pure Energy Development” SARL şirkətidir.



Ali Məclisin Sədri şirkətin rəhbərinə səmərəli fəaliyyətə görə təşəkkürünü bildirmiş, əməkdaşlıqdan məmnunluğunu ifadə etmişdir.

Ali Məclisin Sədri demişdir: Bu gün istifadəyə verilən yeni Günəş Elektrik Stansiyası ilə muxtar respublikanın Günəş Elektrik stansiyalarının gücü 36 meqavata, illik istehsal gücü isə 55 milyon kilovat-saata çatdırılacaqdır. Bu da, ümumilikdə, muxtar respublikada enerji istehsalının 11 faizə yaxınını təşkil edəcəkdir. Şərur rayonunda qurulan 8 meqavatlıq Günəş Elektrik Stansiyası isə rayonun elektrik enerjisinə olan tələbatının 17 faizini təşkil edəcəkdir.

Ali Məclisin Sədri bu münasibətlə kollektivi təbrik etmiş, əməyi olanlara təşəkkürünü bildirmişdir.

İsveçrənin “Pure Energy Development” SARL şirkətinin icraçı direktoru Mişel Kalerami demişdir: “Bu gün 3 meqavat gücündə Günəş Elektrik Stansiyası uğurla tamamlanaraq istifadəyə verilir. Bunun üçün Ali Məclisin Sədrini və Naxçıvan sakinlərini təbrik edir, o cümlədən şirkətimizi yenidən seçdiyiniz üçün minnətdarlıq edirik. Artıq 2014-cü ildən etibarən Naxçıvandayam. Bu illər ərzində Naxçıvanda kompleks inkişafın şahidi olmuşam. Heç şübhə yoxdur ki, Naxçıvan Ali Məclis Sədrinin rəhbərliyi altında gələcəkdə daha çox uğurlara imza atacaqdır. Naxçıvanın coğrafi mövqeyi və iqlim şəraiti muxtar respublikada alternativ enerji mənbələrindən istifadə geniş imkanlar açır. Təsadüfi deyil ki, Naxçıvan alternativ enerji üzrə regionda lider hesab olunur. Əminəm ki, muxtar respublika rəhbərinin dəstəyi ilə Naxçıvan qısa zamanda “Yaşıl enerji” zonasına çevriləcəkdir”.

Sonra stansiyaya baxış olmuşdur.

Bildirilmişdir ki, stansiyada alçaq və yüksəkgərginlikli kabel xətləri, eləcə də rabitə, müşahidə və idarəetmə sistemi üçün optik kabel xətləri çəkilmiş, ərazi çəpərlənmiş, siqnalizasiya və videomüşahidə qurğuları ilə təmin olunmuşdur. Stansiyanın mövcud SCADA sistemi genişləndirilmiş, iki böyükölçülü nəzarət monitorları və kompüter avadanlığı quraşdırılmışdır. Yenilənmiş SCADA sistemi elektrik enerjisi istehsalının və ötürülməsinin müasir texnoloji səviyyədə həyata keçirilməsinə imkan yaratmışdır. Eyni zamanda istehsal proseslərini yerində və ya uzaqdan idarə etmək, real vaxt rejimində verilənləri müşahidə etmək, toplamaq və emal etmək, etibarlılıq və təhlükəsizliyi gücləndirməklə yanaşı, digər günəş elektrik stansiyalarının sistem operatorlarının istifadə etdikləri SCADA sistemlərinin məlumat mübadiləsinin, o cümlədən idxal-ixrac əməliyyatlarının yüksək səviyyədə təmin edilməsinə bilavasitə şərait yaradır.

Ardı 2-ci səhifədə



Qapalı paylayıcı quruluşda əlavə olaraq yeni yarımstansiyalar üçün 3, “Arpaçay-2” Su Elektrik Stansiyasına və 110/35/10 kilovoltluq Şərur yarımstansiyasından qidalanan 35 kilovoltluq “Arpaçay” hava elektrik verilişi xətlərinə qoşulma etibarlılığını artırmaq üçün 2, stansiya binasının xüsusi sərfiyyatı üçün 1, ölçü transformatorları üçün 1, gələcəkdə layihə gücünü genişləndirmək üçün isə 2 ədəd ehtiyat 35 kilovoltluq eleqaz açarları quraşdırılmışdır. Stansiyanın layihə gücü 8 meqavata çatdırıldığı üçün il ərzində 12 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcəkdir.

Qeyd olunmuşdur ki, “Pure Energy Development” SARL şirkəti tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinə “Mitsubishi L200” markalı avtomobil və 3 ölçü cihazı verilmişdir.

Sonra Ali Məclisin Sədri Şərur rayonunda tikiləcək 3 meqavat gücündə yeni Günəş Elektrik Stansiyasının layihəsinə və əraziyə baxmış, işlərə başlanılması barədə tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev muxtar respublika energetikləri adından yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda “Heydər Əliyev və Türk dünyası” mövzusunda elmi konfrans keçirilib

***Naxçıvan Dövlət Universiteti və Türk Ağsaqqalları Birliyinin birgə təşkilatçılığı ilə ali təhsil ocağında ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Heydər Əliyev və Türk dünyası” mövzusunda elmi-praktik konfrans keçirilib.***

Universitetin İncəsənət fakültəsində “Heydər Əliyev irsinin öyrənilməsi və təbliği” adlı sərgiyə baxış olub. Üç hissədən ibarət olan sərgidə ümummilli liderin əziz xatirəsinə ehtiram əlaməti olaraq 99 sayda kitab, elmi əsər və konfrans materialları nümayiş olunub. Fakültənin sərgi salonunda İncəsənət fakültəsinin müəllim və tələbələrinin ümummilli liderin əziz xatirəsinə həsr olunmuş sənət əsərlərindən ibarət sərgidə rəngkarlıq, heykəltəraşlıq, tikmə, böyük stenddə güllərdən hazırlanmış portreti və imzası olmaqla, ümumilikdə, 50-yə yaxın əl işi nümayiş olunub.

Konfransda əvvəlcə ümummilli lider Heydər Əliyevin və vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Universitetin rektoru Elbrus İsayev konfransı açaraq, Azərbaycanı bugünkü inkişaf səviyyəsinə çatdıran ulu öndərin anadan olmasının 99-cu ildönümünün universitetdə yüksək səviyyədə qeyd olunmasını ümummilli liderin apardığı uğurlu təhsil strategiyası ilə əlaqələndirib. Rektor Azərbaycan elminin böyük hamisi Heydər Əliyevin ali təhsil ocağında 4 dəfə olmasını onun Naxçıvan təhsilinə, muxtar respublika ictimai mühitinə verdiyi qiymətin təzahürü kimi dəyərləndirib.



Qeyd edilib ki, ulu öndərin siyasi irsi müstəqil dövlətçiliyimizin əsasıdır. XX əsr tariximizin əlli ildən artıq dövrü dahi Heydər Əliyev şəxsiyyəti, onun böyük quruculuq fəaliyyəti ilə bağlıdır. Diqqətə çatdırılıb ki, ulu öndərin Naxçıvanın ağır günlərində onu qorumaqla yanaşı, hətta ən çətin məqamlarda belə, muxtar respublikada qəbul etdiyi qərarlar, nəinki Naxçıvanın, hətta Azərbaycanın müstəqil gələcəyi naminə hesablanmış siyasətin təməl prinsipləri olub.

Türk Ağsaqqalları Birliyinin sədri, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, akademik Sudeyif İmamverdiyev sədri olduğu qurumun fəaliyyətindən və birliyin türk dövlətləri ilə birgə keçirdiyi görüşlərdən danışıb. TAİB-nin əsas məqsədlərini diqqətə çatdıran akademik qeyd edib ki, son 30 ildə ölkəmizin qazandığı uğurlar, ictimai-siyasi sferada baş vermiş hadisələrlə bağlı ictimaiyyəti məlumatlandırmaq, gənclərə dövlətçilik siyasətinin mahiyyətini düzgün çatdırmaq bizim əsas hədəflərimiz sırasındadır. Vurğulanıb ki, dahi rəhbərin siyasi fəaliyyətinin Naxçıvan dövrü nə qədər çətin və mürəkkəb bir zamana təsadüf etsə də, bu dövr Azərbaycanın müstəqillik tarixində çox böyük dəyərə malikdir. Akademik Sudeyif İmamverdiyev ulu öndərin apardığı məqsədyönlü siyasətin tarixi mərhələlərinə xronoloji qaydada nəzər salıb, muxtar respublikada aparılan məqsədyönlü siyasəti ulu öndər ideyalarına sadiqliyin təcəssümü kimi qiymətləndirib.

“Heydər Əliyev siyasi irsinin politoloji aspektləri” mövzusundakı çıxışında Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, professor Hikmət Babaoğlu qeyd edib ki, Azərbaycan xalqı üçün ümummilli lider, dünya üçün ümumbəşəri dəyər olan dahi şəxsiyyət Heydər Əliyevin adı və fəaliyyəti Azərbaycan etnosiyasi coğrafiyası ilə məhdudlaşmır. Naxçıvanı Azərbaycanın dövlətçilik, mənəviyyat, ideoloji paytaxtlarından biri adlandıran professor qədim yurd yerini tarixi yaddaş, milli mənəviyyat körpüsü kimi dəyərləndirib. Hikmət Babaoğlu Heydər Əliyevin siyasi irsini bütün Türk dünyası ilə əlaqəli şəkildə təhlil edib. Professor 2003-cü ildə xalqın yüksək etimadı ilə Azərbaycan Prezidenti seçilən cənab İlham Əliyevin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf və siyasi sabitlik kursunu əzmkarlıqla davam etdirdiyini vurğulayıb.

YAP Universitet Şəhərciyi Ərazi Təşkilatının sədri, Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayev Heydər Əliyevin Naxçıvandan başlanan xilaskarlıq missiyasından danışıb. Vurğulanıb ki, Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin varislik ənənələri ilk dəfə Naxçıvanda bərpa olunub. Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin siyasi irsini öyrənmək, müstəqil dövlət quruculuğunda istifadə etmək, gəncliyin tərbiyəsində bir mayaka çevirmək elmi, siyasi-nəzəri və pedaqoji sahələrdəki fəaliyyətində ən mühüm vəzifələrdən biridir.



“Heydər Əliyev və milli şüur konsepsiyası” adlı çıxışında universitetin Fəlsəfə və sosial iş kafedrasının professoru, fəlsəfə elmləri doktoru Məmməd Rzayev vurğulayıb ki, Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etməklə bərabər, millətimizin və dövlətimizin ideoloji xəttini, söykənəcəyi təməl prinsiplərini irs olaraq müəyyənləşdirən ulu öndər XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi dahi şəxsiyyət, dövlət idarəçiliyi sahəsində son dərəcə böyük və təcrübəli siyasət adamı, dövlət xadimi, dövlətçilik tariximizdə həmişəlik qalacaq və ehtiramla anılacaq şəxsiyyətdir. Onun zəngin dövlətçilik təcrübəsi dünya siyasətçiləri tərəfindən təqdir edilir və yüksək qiymətləndirilir.

Sonda Naxçıvan televiziyasının hazırladığı “Heydər Əliyev və Türk dünyası” adlı film nümayiş olunub. Rektor konfransdan xatirə olaraq Türk Ağsaqqalları Birliyinin sədri, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, akademik Sudeyif İmamverdiyevə plaket və hədiyyə təqdim edib.

Türk Ağsaqqalları Birliyinin sədri belə mötəbər konfransa ev sahibliyi edən rektora təşəkkürnamə ilə mükafatlandırıb.

Universitetin İncəsənət fakültəsi müəllim və tələbələrinin ifasında konfransın bağlanış konserti olub. Konsertdə ümummilli liderin əziz xatirəsinə həsr olunan və onun sevdiyi mahnılar ifa olunub. M.Maqomayevin “Azərbaycan”, N.Məmmədovun “Sənsən xilaskar”, R.Mirişlinin “Məşəl kimi yanan ürək”, C.Cahangirovun “Alagöz”, E.Mansurovun “İlhamla sabaha” mahnıları tamaşaçılar tərəfindən hərarətlə qarşılanıb.

## Naxçıvan Dövlət Universitetində ustad dərsləri təşkil olunub

*Millət vəkili, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının politoloji aspektlərini ilk dəfə kompleks şəkildə öyrənən siyasi elmlər doktoru, professor, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Hikmət Babaoğlu Naxçıvan Dövlət Universitetinin müəllim və tələbləri üçün ustad dərsi keçib.*





Tanınmış professor “Beynəlxalq münasibətlər”, “Xarici siyasət”, “Yeni dünya nizamı” kimi mövzularda çıxış edib. Bildirilib ki, müasir dövrdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yerini, rolunu, mövqeyini, iştirakçılıq səviyyəsini müəyyən edən başlıca strateji amillərdən biri həyata keçirilən xarici siyasət kursudur. Vurğulanıb ki, bir sıra nəzəri-konseptual mənbələrdə xarici siyasət, əsas etibarilə, daxili siyasətin davamı kimi səciyyələndirilir. Lakin bütövlükdə xarici siyasət spesifik xarakter daşıyır, yəni öz istiqamətləri, hədəfləri, məqsədləri və prioritetlərinə görə daxili siyasətdən fərqli xarakterə malik olan strateji vasitə kimi çıxış edir.

Vurğulanıb ki, Azərbaycan həyata keçirdiyi məqsədyönlü, strateji diplomatiya sayəsində dünya siyasətinin cazibə mərkəzlərindən birinə çevrilməkdədir. Bunun əsas səbəblərindən biri Prezident cənab İlham Əliyevin dünya siyasətində baş verən dəyişiklikləri düzgün qiymətləndirmək və bu kontekstdə milli təhlükəsizliyimizi, milli maraqlarımızı yeni çağırışlarla uzlaşdıra bilmək bacarığıdır.

Türk Ağsaqqalları Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Yeni Azərbaycan Partiyasının yaradıcılarından biri, Azərbaycan Tibb Universitetinin Urologiya kafedrasının müdiri, uroloq, akademik Sudeyif İmamverdiyev Tibb fakültəsinin müəllim və tələbələri üçün ustad dərsi keçib.

Tanınmış akademik urologiya və nefrologiyanı əhatə edən ustad dərsində uroloji xəstəliklər, onların yaranma səbəbləri, əlamətləri, müalicəsindən ətraflı bəhs edilib.

Universitetin rektoru Elbrus İsayev tanınmış elm adamlarının, ictimai-siyasi xadimlərin ustad dərslərinin əhəmiyyətini vurğulayıb. Müəllim və tələbələrin sualları cavablandırıldıqdan sonra rektor ustad dərslərinə görə universitetin təşəkkürnamələrini təqdim edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## İkinci Dünya müharibəsi iştirakçılarına və digər müvafiq şəxslərə birdəfəlik maddi yardımın verilməsi təmin edilib

Bu gün ölkəmizdə müharibə veteranlarına dövlət qayğısı sosial siyasətin əsas istiqamətlərindəndir. İkinci Dünya müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərilir, onların sosial təminatı daha da yaxşılaşdırılır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” 2022-ci il 19 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin davamıdır.

Sərəncama əsasən İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına isə 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcəkdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən Sərəncamın icrası ilə bağlı müvafiq işlər görülüb və birdəfəlik maddi yardımın ödənilməsi prosesi qısa müddət ərzində yekunlaşdırılıb. Muxtar respublika üzrə birdəfəlik maddi yardımın ödənilməsi 315 nəfərə şamil edilib. Onlardan 6 nəfəri İkinci Dünya müharibəsinin iştirakçısı, 309 nəfər isə İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərdir. Birdəfəlik maddi yardımın ödənilməsi üçün, ümumilikdə, 240 min 750 manat vəsait həmin şəxslərin bank hesablarına köçürülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Türk Ağsaqqalları Birliyinin nümayəndə heyəti:

## *“Naxçıvan Muxtar Respublikasında dövlətçiliyə sədaqət, Vətənə məhəbbət, milli-mənəvi dəyərlərə sadiqlik əsas missiyadır. Naxçıvan ulu öndərin siyasi xəttinə söykənərək gələcək inkişaf yolunda uğurla irəliləməkdədir”*



*Məlum olduğu kimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 99 illik yubileyi ilə əlaqədar olaraq Türk Ağsaqqalları Birliyinin sədri və tərkibində millət vəkillərinin də olduğu nümayəndə heyəti Naxçıvanda oldular. Biz də bu fürsətdən istifadə edərək birliyin ölkə ictimaiyyətində tanınmış bir neçə ziyalı nümayəndəsi ilə həmsöhbət olduq, onların muxtar respublikamız haqqında təəssüratlarını öyrəndik.*



***Sudeyif İmamverdiyev – Türk Ağsaqqalları Birliyinin sədri, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, akademik:*** – Türk Ağsaqqalları Birliyinin Naxçıvan Dövlət Universiteti ilə birgə keçirdiyi konfrans ulu öndər Heydər Əliyevin Türk dünyası üçün misilsiz siyasi xidmətlərinə həsr olunmuşdu. Naxçıvan ürəkaçan bir şəhər kimi bizə çox müsbət təsir etdi. Burada hər tərəf tərtəmiz, çox gözəl idi və hər cəhətdən düşünülmüş həyat şəraiti qurulub. Naxçıvan Dövlət Universiteti ilə tanış olduq. Onun tədris korpuslarını, tələbə evini, gözəl arxitekturasını, təmizliyini gördük. Burada təşkil edilən konfrans da yüksək səviyyədə idi. Məruzələrdə ulu öndərin fəaliyyəti, Naxçıvanda aparılmış quruculuq, inkişaf mərhələləri, universitetin formalaşması ilə bağlı, Azərbaycanın çətin dövrlərində Naxçıvan sakinlərinin ulu öndərə dəstəyi və digər mövzularda dəyərli çıxışlar dinlədik. Ulu öndərin Türk dünyasına verdiyi töhfəni çox əhatəli şəkildə auditoriyaya çatdıra bildik. Mənim çıxışım, xüsusən Azərbaycanın ən çətin bir dövründə ulu öndərimizin fəaliyyəti, Azərbaycan xalqının liderinə olan etibarını əhatə etdi. Ümumiyyətlə, buradakı görüşlər, gördüklərimiz heç vaxt yadımızdan çıxmayacaq. Bildirim ki, Naxçıvan şəhəri başdan-başa abadlaşıb. Bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun həyata keçirdiyi genişmiqyaslı işlər sayəsində mümkün olub. Ali Məclis Sədrinin rəhbərliyi ilə bu gün Naxçıvanda baş verən inkişaf prosesləri, dəyişikliklər son dərəcə ürəkaçandır. Bütün Azərbaycan regionları burada idarəçilik sisteminin yüksək səviyyəsindən nümunə götürə bilər. Bu gün Azərbaycanın hər yerində geniş quruculuq işləri gedir. Bu, ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıqlarının yerlərdə layaqətlə yerinə yetirilməsinin nəticəsidir. Muxtar respublikada ümummilli liderin ideyaları, cənab Prezidentin tapşırıqları yüksək səviyyədə həyata keçirilir. Bu, ürəkaçandır. Biz burada özümüzü çox xoşbəxt saydıq. Çox sağ olun.



***Hikmət Babaoğlu – Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, professor:*** – Naxçıvan Dövlət Universitetində Türk Ağsaqqalları Birliyi ilə bərabər “Heydər Əliyev və Türk dünyası” adlı konfrans keçirildi. Mən düşünürəm ki, məhz Naxçıvanda belə bir konfransın təşkil olunmasının xüsusi əhəmiyyəti vardır. Ona görə ki, hazırda regionumuzda yaranan yeni geostrateji reallıqlar, əldə etdiyimiz tarixi Zəfər kontekstində Naxçıvanın 100 il bundan əvvəlki geostrateji əhəmiyyəti, coğrafi mövqeyi, Türk dünyasının bütövlüyü yenidən özünə qaytarılıbdır. Bundan sonra regionumuzda inşa ediləcək mümkün sülh prosesində Naxçıvanın coğrafiyası xüsusi əhəmiyyət kəsb edəcəkdir. Ölkə başçımızın da qeyd etdiyi kimi, Zəngəzur dəhlizi artıq reallığa çevrilməkdədir və sevindirici haldır ki, münaqişə dövründən ötən 30 il müddətində, əslində, Naxçıvan bu gələcəyə hazırlaşıbdır, burada böyük və yeni infrastruktur yaradılıbdır. Bu gün dəmir yolu dəhlizinin xətti işlək vəziyyətdədir. Çox sevindiricidir, Naxçıvan özünün inkişafı, turizm obyektləri, geniş prospektləri, yaraşıqlı binaları ilə Türk dünyasının gələcəyinə hazırdır. Amma biz bütün bu zəfərlərimizi qeyd edərkən bir həqiqətlə üz-üzə gəlirik. Bu həqiqət ondan ibarətdir ki, regionda yaranmış hazırkı reallıqların təməlləri, Naxçıvanın coğrafi mövqeyinin möhkəmləndirilməsinin də əsasları böyük dövlət xadimi, ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və muxtar respublika rəhbəri tərəfindən uğurla, qətiyyətlə davam etdirilir. Və bu gün, nəhayət, Naxçıvanla bağlı onun arzularının çin olduğu tarixdir həm də.

Konfransda bir-birindən maraqlı, çoxsaylı məruzələr dinlənildi. Bunlar “Heydər Əliyev və Türk dünyası” mövzusunun müxtəlif – ideoloji, iqtisadi, siyasi, regional aspektlərini əhatə edirdi. Düşünürəm ki, konfransda səslənən elmi məruzələr bundan sonrakı mərhələdə də konfrans materialı kimi Naxçıvan Dövlət Universitetində yetişən tələbələr üçün maraqlı mənbə olacaq, onların yaxın siyasi keçmişimizin tarixi ilə bağlı istifadə və xeyli sayda məlumat əldə edəcəkləri bir qaynaq rolunu oynayacaqdır. Naxçıvan Dövlət Universiteti ərazisinə, binalarına və kampustipli olmasına görə Azərbaycanın digər ali təhsil ocaqlarından fərqlənir. Universitetdə yaradılan elmi mühit və təşkilatçılıq olduqca yüksək səviyyədədir. Bu elmi mühit, bu tədris mühiti təqdir olunmalıdır. Ayrıca bir məsələ Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələridir. Qonşu Türkiyənin universitetləri, ölkə universitetləri, eləcə də dünyanın aparıcı universitetləri ilə təcrübə mübadiləsi, kitabxanalarla əlaqələr tələbələr üçün yeni imkanlar yaradır. Elmin sərhədi yoxdur, yetər ki təşəbbüskarlıq olsun. Naxçıvan Dövlət Universiteti də bu istiqamətdə çox böyük strateji addımlar ata bilib. Şübhəsiz ki, önümüzdəki mərhələdə universitetdə kadrların elmi, siyasi, ideoloji hazırlığı kontekstində də bu faktor öz rolunu oynayacaqdır.





***Ramil Həsən – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, Türkdilli Dövlətlərin Parlament Assambleyasının sabiq baş katibi:*** – Gənclik hər bir cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Sağlam gənclik sağlam nəsil deməkdir. Yaxın tarixi keçmişimizdə – sovet dönəmində bu quruluşa xas stereotiplərə görə cəmiyyətdə mövqe sahibi olmaq, dövlət strukturlarında çalışmaq üçün bəlli bir yaş həddini keçməli idin. Belə bir quruluşda gəncliyin inkişafından və cəmiyyətdəki rolundan danışmağa dəyməzdi. Lakin Azərbaycan tarixi müstəqilliyini bərpa etdikdən, xüsusən də xalqın təkidli tələbi ilə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlara başlanıldı. Məlum reallıqdır ki, hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Bu mənada, qeyd etmək yerinə düşər ki, Prezident cənab İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da “Azərbaycan Gəncliyi Dövlət Proqramı”nı təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. Həmin Sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapmışdır. Bu istiqamətlər tamamilə xalqımızın milli mənafelərinin inkişafına yönəldilərək gəncləri ideya müəllifi olmağa səsləyirdi. Yəni hər bir gənc fərdi qaydada özünü idarəçi kimi yetişdirməli, daim təşəbbüskarlıq göstərməlidir. Bununla yanaşı, vurğulamaq lazımdır ki, bu gün ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. Qürurlu haldır ki, xalqımızın qəhrəmanlıq tarixini yazanlar da həmin gənclərimiz arasından sayılıb-seçilən mərd igidlərimiz idi. Naxçıvanda da vətənpərvər ruhlu, dövlətçiliyə sadiq, əzmkar və iradəli gənclik yetişir. Bu, bilavasitə gəncliyin inkişafı üçün yaradılan ideal şəraitlə əlaqədardır. Azərbaycan gəncliyi ümummilli lider ideyalarının sadiq davamçıları kimi xalqımızın, dövlətimizin başını indiyədək necə uca tutmuşsa, bundan sonra da bütün canı, qanı bahasına yalnız bu müqəddəs amala xidmət edəcəkdir.



***Nicat Dağlar – Missiya TV-nin baş redaktoru, Türk Ağsaqqalları Birliyinin aparat rəhbəri, jurnalist:*** – Bu mənim artıq Naxçıvan Muxtar Respublikasına ikinci səfərimdir. İlk səfərim ötən il baş tutmuşdu və həmin görüş, yəni Naxçıvan şəhəri ilə ilk tanışlığım məndə böyük təəssüratlar yaratmışdı. İlk səfərimdən geri qayıtdıqdan sonra Naxçıvanda gördüyüm, tanış olduğum hadisələr barədə qələmə aldığım reportajımda keçirdiyim müsbət hissləri əlimdən gəldiyi qədər tamaşaçıya çatdırmağa çalışdım, bunu özümə borc bildim. Bununla belə qeyd etməliyəm ki, Naxçıvan barədə daha əvvəl də məlumatım var idi, naxçıvanlı dostlarımızın söhbətlərini həmişə maraqla dinləyirdik. Hər iki səfərimdə bu vaxta qədər eşitdiklərimin əyani sübutunu gördüm. Gördüm ki, Naxçıvan necə müasir və inkişaf səviyyəsi yüksək olan bir şəhərdir. Tikilən gözəl məktəb binaları, kənd və xidmət mərkəzləri, səhiyyə ocaqları, salınan abad yollar həmin kəndlərin sakinlərinin rahat yaşayışının təmin olunmasına xidmət edir. Öyrəndik ki, Naxçıvanın etibarlı müdafiə olunan dağ və sərhəd kəndlərinə bu gün fasiləsiz təbii qaz və elektrik enerjisi verilir, rabitə xidməti göstərilir. Yeni yollar rahat gediş-gəlişi təmin edir, müasir məktəb binaları şagirdlərin keyfiyyətli təhsil almasına imkan verir, müasir tibbi xidmət sakinlərin sağlamlığını qoruyur, internetə çıxış imkanı isə insanların dünyagörüşünün artmasına şərait yaradır. Bir sözlə, havası, suyu təmiz olan, hərtərəfli şəraitə və özünəməxsus müsbət auraya malik kəndlər, qəsəbələr bir cazibə məkanına çevrilir. Məhz bunun nəticəsidir ki, Naxçıvan muxtar diyarı Azərbaycan regionları arasında bir çox müsbət keyfiyyətlərinə görə lider nöqtədə dayanıb.



***Ceyhun Musaoğlu – Jurnalist Ekspert Mərkəzinin rəhbəri:*** – Ulu öndər Heydər Əliyevin 99 illik yubileyi münasibətilə Naxçıvana etdiyim bu ilk səfərim mənim üçün yaddaqalan olacaq. Naxçıvan, həqiqətən, çox maraqlı bir diyardır. Təmiz küçələr, abad yollar, geniş park-xiyabanlar ilk görüşdən insanı özünə cəlb edir. Mənim kifayət qədər naxçıvanlı dostlarım var və onlardan bu diyar barədə bir çox məlumatlar öyrənmişik. Amma real şəkildə gəlib görmək, bu gözəlliyə əyani şəkildə tamaşa etmək çox fərqli bir hissdir. Bu diyarın insanları da tamam fərqli bir cazibəyə malikdirlər. Qonaqpərvərlikləri ilə bərabər, həm də çox savadlı və intellektli olurlar. Hər dəfə Naxçıvan mühiti barədə söhbət açıldıqda bu şəhərin insanlarındakı yüksək biliyin, elmin genetik olduğunu dilə gətirirəm. Çünki tanıdığım bütün naxçıvanlı şəxslərin timsalında bunu görmüşəm. Bununla yanaşı, Naxçıvan Dövlət Universiteti ilə tanışlığımız da çox müsbət təəssürat yaratdı. Öyrəndik ki, bu ali təhsil ocağı ölkə miqyasında, o cümlədən beynəlxalq təhsil arenasında da qarşılıqlı əməkdaşlıq sahəsində əldə etdiyi uğurlarla bu gün dünya ölkələrinin diqqət mərkəzindədir. Rektor çıxışında da diqqətə çatdırdı ki, Naxçıvan Dövlət Universiteti əcnəbi tələbələrin sayına görə ölkəmizdə fəaliyyət göstərən ali təhsil ocaqları içərisində ilk sıralardadır. Burada Cənubi Koreya, Pakistan, Türkiyə, Özbəkistan, Nigeriya və digər ölkələrin vətəndaşları müvafiq ixtisaslar üzrə təhsil alırlar. Ən böyük üstünlüyü isə qardaş Türkiyə Respublikasının tələbə-gəncləri təşkil edir. Bununla yanaşı, Naxçıvan Dövlət Universitetinin bir çox türk, Avropa ölkələrinin universitetləri ilə əməkdaşlıq əlaqələri mövcuddur. Təbii ki, bu cür təhsil müəssisəsində oxumaq hər bir tələbə-gənc üçün əlverişli və gözəldir. Naxçıvana bundan sonra da müntəzəm səfər etmək niyyətindəyəm.



***Elnur Eltürk – Türk Ağsaqqalları Birliyinin aparat üzvü, Diaspor üzrə araşdırmaçı:*** – Bakıda böyüsəm də, valideynlərim naxçıvanlıdır. Bu diyar haqqında təəssüratlarım həddindən artıq böyükdür. Bu dəfə Türk Ağsaqqalları Birliyi ilə Naxçıvan Dövlət Universitetinin birgə təşkil etdiyi “Heydər Əliyev və Türk dünyası” mövzusunda elmi-praktik konfransda iştirak etmək üçün gəlmişəm. Konfrans çox yüksək səviyyədə hazırlanmışdı. Hesab edirəm ki, Naxçıvanda belə bir tədbirin keçirilməsi Türk dünyası birliyi üçün də böyük töhfə olacaq. Mən bir daha minnətdaram ki, burada bizi çox qonaqpərvərliklə qəbul etdilər. Bildirmək istəyirəm ki, bu gün Naxçıvana olan diqqət, Naxçıvanla bağlı fikirlər çox yüksək səviyyədədir. Konfransda da çox maraqlı bir məsələyə toxunuldu ki, Naxçıvan elə bil 30 il bundan qabaq dəhlizin açılmasına hazırlaşıb. Bu, muxtar respublikada ümummilli lider Heydər Əliyevin inkişaf və quruculuq siyasətinin dönmədən, inamla davam etdirilməsindən irəli gəlir. Həm də Naxçıvanın yüksək perspektivi, əhəmiyyəti, önəmi və strateji mövqeyi ilə əlaqədardır. Naxçıvanın, demək olar ki, çox yerini gəzmişəm. Bunlar içərisində Möminə xatın türbəsi, Yusif ibn Küseyir oğlu türbəsi, dünyanın ən qədim dini ibadətgahı hesab edilən Əshabi-kəhf ziyarətgahı və digərləri vardır. Naxçıvan çox qədim tarixə, mədəniyyətə malik bir diyardır. Həmçinin Yaxın Şərq tarixində ən qədim şəhər mədəniyyətinə malikdir. Biz öz fikirlərimizi sosial şəbəkələr vasitəsilə ictimaiyyətlə bir daha bölüşəcəyik. Hesab edirəm ki, Türk Ağsaqqalları Birliyinin Naxçıvana səfəri bu tədbirlə yekunlaşmayacaq. Naxçıvan bu birliyin daim diqqət mərkəzində olacaqdır.

**Güntac ŞAHMƏMMƏDLİ**
**Məcid RƏŞADƏTOĞLU**

# İstiqlal şairi Əhməd Cavadın 130 illiyi ilə bağlı tədbirlər keçirilib



*AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi və muxtar respublikanın ali təhsil müəssisələrinin birgə təşkilatçılığı ilə "Əhməd Cavad - 130" mövzusunda elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev milli istiqlal şairi Əhməd Cavadın həyatı və çoxcəhətli fəaliyyəti haqqında məlumat verib, onu böyük şair, maarifçi və ictimai xadim kimi xarakterizə edib. Vurğulanıb ki, Əhməd Cavad Vətəninə, elinə, bütövlükdə, Türk dünyasına bağlı əsl mücahid olmuş, türkçülüyə sevgisinə görə dövrün sovet ideoloqları tərəfindən böyük təhlükə kimi qələmə verilmişdir. Bu səbəbdən də Vətənə sevdalı şair amansız 1937-ci il repressiyasının qurbanı olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2022-ci il tarixli "Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzaladığını diqqətə çatdıran akademik bildirib ki, konfrans Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 23 aprel 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "Tədbirlər Planı"na uyğun olaraq keçirilir. Plana uyğun olaraq bölmənin "Elmi əsərlər" jurnalının xüsusi nömrəsinin Əhməd Cavadın həyat və yaradıcılığına həsr olunması nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar konfransda "Əhməd Cavadın lirikası" mövzusunda məruzə edib. Əhməd Cavad poeziyasının ətraflı təhlilə cəlb olunduğu məruzədə vurğulanıb ki, şairin sovet əsarətinə qarşı haqlı mübarizəsi onun şeirlərində tam dolğun şəkildə əksini tapmış, dərin vətənpərvərlik duyğuları yüksək ustalıqla ifadə olunmuşdur. Əhməd Cavad təkcə şeir yazmaqla kifayətlənməmiş, tərcüməçilik fəaliyyəti ilə məşğul olmuş, bir sıra məsul vəzifələri uğurla yerinə yetirmişdir.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, dosent Ramiz Qasımov "Milli istiqlal şairi: Əhməd Cavad" məruzəsində Əhməd Cavadın milli istiqlal mücadiləsində mühüm rolundan, Azərbaycan Xalq Cümhuriyyəti dövründəki fəaliyyətindən bəhs edib.

Naxçıvan Dövlət Universitetinin baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Seyfəddin Eyvazov "İncə ruhlu şair" mövzulu məruzəsində müasirlərinin yaradıcılığının Əhməd Cavad poetikasında izləri, eləcə də şairin özündən sonrakı söz ustalarının yaradıcılığına təsiri məsələlərini əhatəli təhlil edib.

Naxçıvan Müəllimlər İnstitutunun kafedra müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Həsənalı Eyvazlı "İstiqlal şairinin poetik duyğuları" adlı məruzəsində Əhməd Cavad şeirlərinin məzmun xüsusiyyətlərindən, bədii təsvir vasitələrindən söz açıb.

"Əhməd Cavad və folklor" mövzusunda məruzə edən İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, dosent Aytən Cəfərova ruhu xalq sevgisi ilə yoğrulan söz ustasının ən qəliz fikirlərin ifadəsində folklor nümunələrindən ustalıqla istifadə qabiliyyətinə diqqət çəkib.

"Naxçıvan" Universitetinin şöbə müdiri Anar Abuzərli "Cümhuriyyət qoxulu şair – Əhməd Cavad" adlı məruzəsində şairin şeirlərinin ehtiva etdiyi vətən, bayraq sevgisi, azadlıq mücadiləsində qəhrəmancasına həlak olmuş şəhidlərə rəğbət kimi məsələlərə toxunub.

**AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti**

Naxçıvan Muxtar Respublikası Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyindən muxtar respublikanın



ümumtəhsil məktəblərinin şagirdlərinə "Vətənpərvər şair – Əhməd Cavad" mövzusunda interaktiv dərs keçilib. Muzeyin bələdçisi tərəfindən aparılan dərsi muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbinin şagirdləri izləyib.

Dərs zamanı şagirdlərə şair, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Respublikası Dövlət Himninin sözlərinin müəllifi, yaradıcılığında milli oyanış, xalq hərəkatı, türk xalqlarının birliyinə çağırış motivləri aparıcı yer tutan lirik şair Əhməd Cavadın həyat və yaradıcılığı haqqında məlumat verilib.

Sonra şagirdlər muzeyin ekspozisiyasında şairə həsr olunmuş daimi guşə ilə tanış edilib.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

*Tarixboyu yadelli işğalçılara və qəsbkarlara qarşı böyük müharibələrin iştirakçısı olmuş azərbaycanlılar döyüş idman növlərini daha çox sevirlər desək, yəqin ki, yanılmarıq. Hətta seyr etdiyimiz filmlərdə belə, xalqımızın qəhrəmanlıq tarixini əks etdirən döyüş səhnələri bizləri daha çox cəlb edir. Bu, xalqımızın nə qədər mübariz və cəsarətli, güclü bir tarixi kökə malik olduğunun göstəricisidir. Bu fonda, ələlxüsus, qadınlarımızın şücaətindən söz etməmək haqsızlıq olar. "Aslanın erkəyi, dişisi olmaz" deyimi baxdığımız filmlərdə seçilən kumirləri uşaqlığımızın qəhrəmanına çevirməklə yanaşı, həm də qızların idman klublarına, zallarına üz tutmasına səbəb olub. Təbii ki, bu da genofondumuzun nə qədər güclü olduğunu bir daha sübut edir. Bu gün portretini canlandırmağa çalışacağımız qəhrəmanın da uşaqlığı bu filmlərə baxmaqla keçib. Bəlkə də, elə həmin filmlər onun hansı gücə malik olduğunu ortaya çıxarıb. Söhbət muxtar respublikanın ilk qadın ağır atleti, Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının üzvü Gülcahan Əliyevadan gedir.*

# Ölkənin ən güclü ağır atleti olmaq istəyən qadın idmançımız

### *Asan başa gəlməyən uğur*

Gülcahan Əliyeva 2004-cü il iyul ayının 14-də Şərur rayonunun Məmmədsabir kəndində dünyaya gəlib. Uşaqlıqdan idmana həvəsi olsa da, qızlar üçün bu sahə ona bir az uzaq görünüb. Lakin zaman keçdikcə Gülcahanın daxilində olan güc onun fikirlərini dəyişib. Hələ 11 yaşını yenicə tamamlayan qəhrəmanımız Şərur Rayon Ağır Atletika Bölməsində ağırlıqqaldırma idman növünün sirlərinə yiyələnməyə başlayır. Yeniyetmə idmançımız ştanq arxasına keçdikdən sonra bu



istiqamətdə uğur qazanacağına sanki inanır. Təbii ki, onun ştanqdan bərk-bərk yapışmasının səbəbkarı Azərbaycan Respublikasının Əməkdar məşqçisi Şəfi Hüseynov olub. Məşqçi-müəllim o günləri belə xatırlayır: "Gülcahanın fiziologiyası sırf ağırlıqqaldırma üzərində qurulub sanki. Bunu zala ilk gəldiyi gündən hiss etdim. Ona baxaraq öz-özümə: "bu qız ölkənin ən güclü ağır atleti olacaq", – dedim. Məşqlərə gəldikdən sonra Gülcahana ilk olaraq nizam-intizamı, səbir etməyi öyrətdim. Etiraf etdim ki, bu heç də asan başa gəlmədi. Bəzən idmançının nazı ilə oynamalısan, hələ bu qız olarsa. Amma bütün çətinliklərə baxmayaraq, düşünürəm ki, qarşımıza qoyduğumuz məqsədə az da olsa, çatmışıq. Təbii ki, uğurlarımızda yaradılan şərait də mühüm rol oynayıb".

### *İstirahətə "yox" deyən*

Həm ailəsinin, həm də məşqçisinin dəstəyi ilə ruhlanan Gülcahan ara vermədən məşqlərə başlayıb, mütəmadi olaraq davam edib: "Məşqlərə başlamazdan öncə, valideynlərimin mənə məsləhəti "ağır məşqlərin ardından sonra qazanılan hər çempionluqda özündə rahatlıq hiss edəcəksən. Hələ beynəlxalq yarışlarda bu rahatlıq fəxrlə, qürurla əvəzlənəcək. Məşq edəcəksənsə, bunları nəzərə al, sonadək davam et" idi. Bu sözlər hər zaman beynimdə "fırlanır". Bu idman növünü seçərkən, yalnız özümü yox, eyni zamanda mənə etimad göstərənləri də yaddaşıma həkk etdim. Çünki qazandığım uğurlar təkcə mənim yox, onların da əziyyətinin bəhrəsidir. Bütün bunları nəzərə alaraq heç vaxt məşqlərdən qalmadım. Elə hallar olub ki, yüksək temperaturla məşqə getmişəm, məşqçim mənə istirahət versə də, "yox" demişəm. Hədəfim olub, bu hədəfə doğru irəliləməyin asan olmayacağını da ilk gündən bilirdim. Məhz mənə güc, qüvvət verən də budur".

### *Gecikməyən uğur*

Ağır atletikanın tarixini analiz etsək, burada qadın idmançıların nə qədər iradəli olduğunun şahidi olarıq. Gülcahan Əliyeva da sanki onların bu hisslərindən bəhrələnib. "Hər ağır işin sonunda, səni gözləyən sevinc göz yaşları var" – deyirlər. Əslində isə bu göz yaşları uzun illər çəkdiyin əziyyətin yorğunluğu, içindəki hayqırtının təzahürüdür. Kiçik yaşdan idman növünün adı kimi ağır yükün altına girən yeniyetmə idmançımızın uğurları özünü çox gözlətmir. Qısa vaxt kəsiyində qazandığı uğurlar onun Azərbaycan millisinə olan yolunu açır. O zaman ölkənin 14 yaşlıları ibarət milli komandasının ən istedadlı ağır atletlərindən biri hesab edilən Gülcahanın ən böyük keyfiyyəti körpücük üzərinə çıxarkən hər şeyi unutması və diqqətini bir istiqamətə yönəltməsidir: "Məşqçilərimizin hər zaman dediyi bir söz var: körpücük üzərində olarkən bütün hissini gücünə ver ki, qaldırdığın ağırlıq sənin qolundakı gücdən az olsun. Hər zaman bu hisslə yarışlara çıxıram. Xırdalan şəhərində fəaliyyət göstərən "Zirvə" klubunda ağır atletika üzrə Azərbaycan çempionatının seçmə yarışlarında iştirakım uğurlu alındı və 48 kiloqram çəki dərəcəsində Azərbaycan çempionu və mükafatçısı oldum. Bu mənə əlavə motivasiya verdi. İştirak etdiyim bir çox yarışların qalibi və mükafatçısı olmuşam. Son olaraq isə qadınlar arasında Azərbaycan çempionu adını qazandım. Bu uğurdan sonra ölkənin yeniyetmələrdən ibarət milli komandasına dəvət aldım. Qısa vaxtdan sonra millimizlə məşqlərə başlayacağam. Qarşıda əsas komandanın heyətində bizi böyük turnirlər gözləyir. Çalışacağam həmin turnirlərdə uğur qazanıb Azərbaycan bayrağını dalğalandırım".



### *Ştanqın dostu*

Şahmat yarışına bənzəyən idmançı karyerası bəzən səni qara fiqurlarla oynamağa vadar edir. "Qara zolaq" deyilən zədə epidemiyası Gülcahanı ən çox qorxudan haldır: "Mümkün qədər zədələnməməyə çalışıram. Bunun üçün gərək idmançı gündəlik həyat rejiminə fikir versin. Hətta qeyri-normal yuxu və yemək rejimi belə, sənin ciddi zədələnməyinə səbəb ola bilər".

Arzularını reallaşdıran yeniyetmə idmançımız Şərur rayon 1 nömrəli tam orta məktəbin məzunudur. Peşəkar idmana başladıqdan sonra məktəbdə müəllimlərinin sevimlisi olub. Asudə vaxtlarını dostları ilə keçirməyi xoşlayan Gülcahan, bununla yanaşı, döyüş filmlərini izləməyi və digər idmançıların məşqlərinə baxmağı sevir. Daha dəqiq ifadə etsək, ağır atletimizin hobbisi uşaqlıqdan gəlinciklə oynamaq yox, ağır daşlarla vaxt keçirmək olub: "Bu, bəzən digərləri üçün qəribə səslənə bilər. Lakin 11 yaşımdan etibarən mənim doğmam, dostum gördüyünüz bu daşlar olub. Onlarla oynayıram, bəzən isə onlarla danışıram, onlar mənim ən yaxın dostlarımdır".

### *Hədəf*

Gülcahan Əliyevanın "Ən böyük hədəfin nədir?" sualına cavabı hər bir idmançı kimi Vətən sevgisi ilə başlayır: "Hədəfim Avropa və dünya çempionatlarında uğur qazanmaq və Azərbaycanı Yay Olimpiya Oyunlarında təmsil etməkdir. Bu, hər bir idmançının arzusudur. Lakin arzunu həyata keçirmək üçün çox çalışmaq lazımdır. Muxtar respublikada idmançılar üçün yaradılan şəraitdən istifadə edib, gücüm çatana qədər çalışıb uğur qazanacağam. Mənə göstərilən etimad böyükdür və bu etimadı doğruldacağam".

### *Portret*

Səmimi, ünsiyyətcil olduğu qədər də sərt, əzmkar olan Gülcahan Əliyeva qadın idmanına göstərilən diqqət və qayğıdan bəhrələnən qəhrəmanımızdır. O, qazandığı uğurlarla qadının nə qədər böyük qüvvə olduğunu bir daha sübut edir. Erkən yaşda onun öz gücünə inanması, ağır atletikaya sevgisi, böyük uğurlar qazanması Naxçıvanımızda yeni dünya və Avropa çempionunun yetişməsi deməkdir.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 16 may 2022-ci il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/№ | Hərraca çıxarılacaq nəqliyyat vasitəsi | Tipi | Buraxılış ili | Sayı (ədədlə) | Nəqliyyat vasitəsinin ilkin satış qiyməti (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|
| 1. | Opel Astra | Minik | 2008 | 1 | 9000.0 | 900 |
| 2. | Opel Vektra | Minik | 2007 | 1 | 10000.0 | 1000 |
| 3. | Opel İnsignia | Minik | 2013 | 1 | 12000.0 | 1200 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh xüsusi xəzinə hesabına 13 may 2022-ci il tarixədək ödənilməlidir. Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 16 may 2022-ci il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38.***

### *İtmişdir*

Naxçıvan şəhəri, Babək məhəlləsi bina 15, mənzil 47 ünvanında Quliyev Elşən Fərəməz oğlunun adına olan 14117 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Mirzəyev Ziyatay Əflan oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Dünyamalıyev Cavanşir Məmməd oğlunun adına olan VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 376